## *Müəllifin arxivindən*

# ZƏFƏR GÜNÜ ÇOX SEVİNİRDİM Kİ, TORPAQLARIMIZIN AZAD OLUNMASINDA MƏNİM BALALARIMIN DA PAYI VAR

***Şəhid kiçik miçman, Vətən Müharibəsi Qəhrəmanı Fəqan Amil oğlu Zalovun anası Səridə Zalova ilə müsahibə***

*(Əvvəli ötən sayımızda)*

**Vətən müharibəsinin gedişi zamanı qəhrəmanımızla nə qədər müddətdən bir və necə əlaqə saxlaya bilirdiniz?**

- Vətən müharibəsi başlayandan və Fəqan müharibədə olandanbir neçə gün keçmişdi. Ondan bir səs-soraq olmadığından biz çox nigaran idik, demək olar ki,gecədən səhərə qədər yatmırdıq. Gözümüz televizorda idi ki, görək müharibə necə gedir, hansı xəbərlər eşidəcəyik. Müharibə başlayandan 3-4 gün sonra Fəqan zəng etdi, dedi ki, mən Cəbrayıl istiqamətindəyəm, vəziyyətimiz əladır, düşməni torpaqlarımızdan qovuruq, nigaran qalmayın, inşəAllah, tezliklə zəfərlə qayıdacağıq. Onlar müharibənin əvvəlində Suqovuşan tərəfdə döyüşüblər. Sonra onları Füzuli istiqamətinə göndəriblər. Növbəti dəfə Fəqan bizə Füzuli-Cəbrayıl istiqamətindən zəng vurdu. Yenə də dedi, vəziyyət yaxşıdır, hər şey əladır, məğlub olma ərəfəsində olan mənfur düşmənlərimizin murdar meyidləri, cəsədləri ayaqlarımızın altında qalır, diriləri də silahlarını atıb qaçırlar. Deyirdi, hər şey yaxşı olacaq, torpaqlarımızı tamamilə o mənfurlardan azad edəcəyik, o torpaqlara qalib kimi qayıdacağıq. Narahat olmayın, hər şey yaxşı olacaq. Biz 2 gündən bir, ya da vəziyyətdən asılı olaraq elə olurdu ki, gündə 1 dəfə mobil telefonla əlaqə saxlayırdıq.O, həmişə nikbin, böyük qələbəyə inamlı danışırdı. Onun qələbəmizə inamı sonsuz idi.

**- Xahiş edirəm, qəhrəmanımızın Vətən müharibəsindəki şücaətlərindən, yaralanıb xəstəxanaya yerləşdirilməsindən və sonra yenidən döyüşə yollanmasından ətraflı məlumat verəsiniz.**

- Fəqan Cəbrayıl istiqamətində gedən ağır döyüşlər zamanı qəlpə yarası alıb. Atası bu barədə məlumat aldıqdan sonra mənə zəng edib dedi ki, qorxma, Fəqan yüngül yaralanıb, onu Füzuli hospitalına gətiriblər. Mənim bir rəfiqəm var idi ? Şükufə xanım. O, Füzuli hospitalında işləyirdi. Həmin rəfiqəm mənə dedi ki, işdə olarkən gördüm, hospitalda kimsə qolumdan tutdu. Çönüb baxdım ki, qolumdan tutan Fəqandır. Göz yaşlarımı saxlaya bilməyib ağladım, dedim ki, nə olub sənə, Fəqan? Fəqan da ona deyib ki, mənə heç nə olmayıb, narahat olmayın, bir balaca yaram var, amma Şükufə xala, anamgilə demə. Mən elə buradan çıxdıqdan sonra yenə birbaşa cəbhəyə qayıdacağam, o mənfur düşmənlərin sonuna çatmayınca rahatlıq tapmayacağam.Rəfiqəmdeyir ki, dözə bilmədim, həyat yoldaşıma zəng vurdum, dedim ki, Fəqanın atası Amil kişiyə de ki, Fəqan yaralanıb. Şükufə xanımın həyat yoldaşı Zaur müəllim də Fəqanın atasına zəng vurduqdan sonra Fəqanın atası hospitala gedib, Fəqanla görüşüb. Fəqan atasına deyib ki, ata, yaram yüngüldür, halbuki Fəqanın qılçasına qəlpə dolubmuş. Qılçasındakı qəlpələri çıxartmaq üçün Fəqanı Hacıqabul xəstəxanasına yollayıblar, ancaq o, qəlpələri çıxartmağa qoymayıb. 2-3 dəfə baş həkimin yanına gedib deyib ki, narahat olmayın, mənim ağrım yoxdur, qəlpələr zərərsiz yerdədir, mənə icazə verin, gedim öz döyüş yoldaşlarımın yanına, onlardan, döyüş meydanından ötrü çox darıxıram. Amma baş həkim buna icazə verməyib. Sonra Fəqan Bakıya hospitala göndərilib. Xəbər tutduqdan sonra biz onu orada gördük. Fəqan mənə dedi ki, ana, heç nəyim yoxdur, yaxşıyam, niyə narahat olub gəlmisən? Sadəcə qılçamda 1-2 qəlpə var, onu da lazım olsa, çıxartdırarıq, olmasa da qələbəmizlə başa çatacaq vətən müharibəsindən yadigar qalar. Demə, Fəqana istirahət etməyə, dincəlməyə görə 15 gün ev məzuniyyəti veriblər, o isə 5 gününü



götürüb, deyib ki, mən yaxşıyam, hər şey qaydasındadır, 5 gün bəsimdir. Evə gəldi, balamı bağrıma basıb, qucaqlayıb yarı rahat, yarı narahat yatdım. Dedim, Fəqan, getmə, sənin qılçan yaralıdır, görürəm ki, axsayırsan, çətinliklə hərəkət edirsən. Dedi, yox, ana, heç nəyim yoxdur, narahat olma, orada məni döyüşyoldaşlarım və azad olunmasını gözləməkdən gözləri qaralmış Qarabağ həsrətlə gözləyir. Fəqan cəbhəyə gedəndə onu yola saldım, arxasınca su da atdım, ona hiss etdirmədən ağladım. Lakin o, ağladığımı sezmiş kimi mənə dedi ki, ağlama, ana, Allah qoysa, torpaqlarımızı işğaldan azad edib sağ-salamat qayıdacağam və biz birlikdə ora, azad edilmiş torpaqlarımıza birlikdə gedəcəyik. Gedəndən sonra xəstəxanadan Fəqana zəng vurublar ki, sənədin Bakıda qalıb, sənədini götür, səhərisi gün gedərsən. O isə deyib ki, mən artıq yoldayam, döyüş yoldaşlarımın yanına gedirəm, zəhmət olmasa, sənədi siz göndərərsiniz. Eləcə onu yola saldıq, öz istəyinin, arzusunun, amalının ardınca getdi yaralı halda...

**- Vətən fədaimizin şəhid olma xəbərini nə vaxt, kimdən eşitdiniz?**

- Fəqan 2020-ci ilin noyabr ayının 9-u günü, düşmənin təslimolma sazişinin bağlanmasına saatlar qalmış şəhid olub-.Onun şəhid olmasını ilk əvvəl mənə deməmişdilər. Qızım mənə zəng vurdu ki, ana, Fəqandan xəbərin var? Deyirlər, Fəqan yaralanıb. Demə, qızıma da yalan deyiblərmiş. Qızıma dedim ki, ola bilməz, Fəqan mənə söz verib, torpaqlarımızı azad etdikdən sonra azad olunmuş torpaqlarımızaqalib ölkənin qalib əsgəri kimi onunla birlikdə gedəcəyik. Gördüm ki, bir qonşumuz digər qonşumuza deyir ki, Fəqanıməscidə aparıblar. Bunu eşitdikdən sonra dünya gözlərimdə qaraldı, çox pis oldum, daha doğrusu, özümü ölmüş, həyat çırağımı sönmüş bildim. Bildim ki, Fəqan, demə, şəhid olubmuş. Sonrasını sözlə ifadə etməyə çətinlik çəkirəm.

**- Müzəffər ordumuz qələbə çaldı. Vətən müharibəsində qələbənin qazanılmasından, Fəqan şəhid olduğu yerlərin azad olmasından sonra siz hansı hissləri keçirdiniz?**

- Fəqanın döyüş yoldaşlarından biri deyir ki, müharibədə olan vaxtı mənim silah-sursatım qurtarmışdı, düşmən tərəfin səngərlərinəzarətimiz altında idi, amma mərmilər başımıza yağış kimi yağdığından ora gedə bilmirdik. Səngərdə olan düşmən əsgərləri silahını qoyub qaçmışdı. Fəqana dedim ki, silah-sursatın var? Fəqan dedi ki, mən bu saat sənə silah-sursat gətirərəm. Fəqan yağış kimi tökülən güllələrin, mərmilərin altından sürünə-sürünə gedib səngərdən silah-sursat, çoxlu patronlar gətirib döyüş yoldaşlarına verib. Döyüş yoldaşlarının dediyinə görə müharibədə Fəqanın belə qəhrəmanlıqları çox olub. O,həmişə qəhrəmancasına vuruşub. Ona görə də Ali Baş Komandanımız,Prezidentimiz Fəqanı "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görüb. Fəqan Hacıqabul hospitalında olanda tibb bacısı sarğısını dəyişərkən Fəqan gülə-gülə tibb bacısına deyib ki, əziyyət çəkməyin, onsuz da mən vətən yolunda şəhid olacağam. Tibb bacısı sonradan deyirdi ki, hələ də onun o, şən, məğrur gülüşləri gözümün önündən, sözləriisə qulağımdan getməyib. Deyim ki, Vətən savaşında müzəffər ordumuz qələbə çalandan sonra elə bildim ki, artıq Fəqan



rahatdır. Onun uşaqlıqdan arzuladıqları həyata keçmişdi. Əgər Fəqan şəhid olanda onu itirdiyimə görə ağlayırdımsa, qələbə xəbərini aldıqdan sonra sevincimdən göz yaşlarım sel kimi axırdı. Artıq bilirdimki, oğlum Fəqan da daxil olmaqla bütün şəhidlərimizin qisası mənfur düşmənlərdən alınıb və onların ruhu şaddır, azad olunmuş torpaqlarımızın səmalarında, ənginliklərdə pərvaz edir. Elə bu mənim üçün hər şey demək idi.

**- Son olaraq Vətən müharibəsi Qəhrəmanının anası kimi biz gənclərə və şəhid ailələrinə nə deyərdiniz?**

- Biz müharibə vaxtı hər gün yeniyeni ərazilərimizin işğaldan azadolunması xəbərini televiziya vasitəsilə Ali Baş Komandanımız cənab İlham Əliyevin dilindən eşidəndə çox sevinirdik. Deyirdim, mənim balalarım da torpaqlarımızın azad olunmasında iştirak edirlər. Çünki hər iki oğlum hərbiçi olmaqla Vətən müharibəsində iştirak edirdi. Çox sevinirdim ki, torpaqlarımızın azad olunmasında mənim balalarımın da payı var. Min əzabla, əziyyətlə böyütdüyüm uşaqlar torpaqlarımızı geri qaytarmaq üçün mənfur düşmənin qarşısında idi. Həqiqətən də çox sevinirdim. Allah bütün şəhidlərimizə rəhmət eləsin, məkanları cənnət eləsin! Müqəddəs olan, şəhidlərimizin qanı axmaqla müqəddəslərin müqəddəsinə çevrilmiş o torpaqlara soydaşlarımız gedirlər, o müqəddəs yerləri gəzirlər. İndən belə Allah heç vaxt bizim dövlətimizə, vətənimizə müharibə qismət eləməsin! Mən balam Fəqanla, onun vətən yolunda şəhadəti ilə qürur duyuram, onun qəhrəmanlığı ilə qürur duyuram. Bütün bunlarla bərabər eyni zamanda bir ana kimi, övlad itirmiş ana kimi mənə çətindir. Bizim gənclərə nəsihətim, arzum odur ki, bu gündən belə çiçəklənən Azərbaycan torpağında mehriban yaşasınlar, xoşbəxt böyüsünlər, torpaqlarını, vətənlərini sevsinlər, şəhidlərimizlə qürur duysunlar, heç vaxt onları unutmasınlar, heç vaxt yaddan çıxarmasınlar. Allah bütün şəhidlərimizə rəhmət eləsin, məqamları uca olsun, torpaqları nurla dolsun! Allah ordumuzu var eləsin! Allah ordumuzu qorusun! Bir daha təkrar edirəm, bu gündən belə Allah vətənimizə müharibə qismət eləməsin, inşəAllah! Sağ olun, Allah köməyiniz olsun! Zəhmət çəkib müsahibə götürdüyünüzə və şəhidlərimizin həyatını işıqlandırdığınızagörə sizə təşəkkür edirəm. Sağ olun.

***Əziz Səridə ana! Müsahibə verdiyiniz üçün sizə dərin minnətdarlığımı bildirir, əllərinizdən öpür, şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyirəm.Siz vətən yolunda ailənizlə birgə çox cəfa çəkdiniz, doğulub boya-başa çatdığınız yurd-yuvanızdanuzun illər ayrı qaldınız, qaçqın düşərgələrində yaşadınız, iki yerə bölünmüş Füzulinin bu tayında həsrətli həyat sürdünüz. Bu vətən uğrunda hər əziyyətə dözdünüz və həmin əziyyətli illərdə vətənə layiqli övladlar yetişdirdiniz. Sizin vətənə yetişdirdiniz həmin övladlar sırf vətənin yarası dərman tapsın deyə öz yarasına dərman axtarmadan döyüşə yollandı. Siz bizim şanlı tariximizə, unudulmaz zəfərimizə yol açan bir övlad böyütdünüz! Sizin oğlunuz, vətənin oğlu Fəqan nə qədər vətən torpağında unudulmazdırsa, siz də o qədər unudulmazsınız və sizi, sizləri unutmağın cəzası ölüm hökmünə layiq görülən cinayətdən daha ağırdır. İnşəAllah, əminəm ki, vətənimizdə beləsi yoxdur.***

***Vətən sizi unutmaz! Allah bütün şəhidlərə rəhmət eləsin!Şəhidlərimizi igid, vətənpərvər, vətən fədaisi kimi böyüdən müqəddəs ailələrinə cansağlığı versin! Amin!***

*04.07.2022*



***Sevindik NƏSİBOĞLU***
***şair-publisist, AJB-nin üzvü***